**AzTU-nun Maşınqayırma və robototexnika fakültəsinin Elmi Şurasının 04.06.2025-ci il tarixli iclasının 09 saylı protokolundan**

**ÇIXARIŞ**

İştirak edirdi: 15 nəfər
İştirak etmədi: 6 nəfər

**GÜNDƏLİK MƏSƏLƏ**

**5. Müxtəlif məsələlər.**

**5.2. Təqdim olunmuş tədris-metodiki işlərin müzakirəsi və təsdiqi.**

5.2.1.“Mexatronika” kafedrasının müdiri, t.e.d. İftixar Qurbanəli oğlu Çələbinin hazırladığı “Ötürücü mexanizmlərin etibarlığı” adlı monoqrafiyanın müzakirəsi.

**DİNLƏNİLDİ:** Sədr, dos. Malik Fikrət oğlu Qarayev “Mexatronika” kafedrasının müdiri İftixar Qurbanəli oğlu Çələbi tərəfindən hazırlanmış “Ötürücü mexanizmlərin etibarlığı” adlı monoqrafiyanı müzakirəyə çıxardı. O, monoqrafiyanın “Mexatronika” kafedrasının 27.05.2025-ci il tarixli iclasında (protokol № 08) və Fakültə Metodiki Qrupunun 04.06.2025-ci il tarixli iclasında (protokol № 05) müzakirə edilərək nəşr olunmağa tövsiyə edildiyini, AzTU-nun “Xüsusi texnologiyalar və avadanlıqlar” kafedrasının müdiri, professor, t.e.d. Ələkbər Hüseynov və Azərbaycan Dövlət İqtisad Universitetinin “Mühəndislik və tətbiqi elmlər” kafedrasının professoru, t.e.d. Zabit Aslanov tərəfindən monoqrafiyaya müsbət rəy verildiyini qeyd etdi və onu müzakirəyə çıxardı.

**ÇIXIŞLAR:** Elmi Şuranın üzvləri prof. Nəriman Rəsulov, dos. Elbəy Aslanov və dos. Şahin Çərkəsov çıxış edərək monoqrafiyanın elektron variantı ilə tanış olduqlarını, onun tələb olunan qaydalara uyğun olaraq yüksək səviyyədə tərtib edildiyini qeyd etdilər və nəşrinin tövsiyə edilməsinə tərəfdar olduqlarını bildirdilər.

**QƏRARA ALINDI:** T.e.d. İftixar Qurbanəli oğlu Çələbi tərəfindən hazırlanmış “Ötürücü mexanizmlərin etibarlığı” adlı monoqrafiya nəşr olunmaq üçün Universitet Elmi Metodik şurasına tövsiyə olunsun.

**Qərar səsə qoyuldu:**

Lehinə – 15 nəfər
Əleyhinə – yoxdur
Bitərəf – yoxdur

**Qərar yekdilliklə qəbul edildi.**

**Elmi Şuranın sədri, dos.** **M.F.Qarayev**

**Elmi Şuranın katibi, b/m.** **A.R.Ağayev**

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS
SƏNƏDLƏR ÜÇÜN